*https://doi.org/10.30546/114578.2025.11.5071*

# DAXİLİ VƏ XARİCİ MOTİVASİYANIN İNGİLİS DİLİ TƏDRİSİNDƏ MÜQAYİSƏLİ ANALİZİ

**Aynur Miriyeva**
*müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/000-0033155-464X*
*miriyeva575@gmai.com*

**Xülasə**

Motivasiyanın daxili və xarici formaları ingilis dilinin tədrisində öyrənənlərin uğur qazanmasında əsas həlledici amillərdən biri kimi çıxış edir. Onun həm daxili, həm də xarici formaları öyrənənlərin nailiyyətlərinə birbaşa təsir göstərir. Motivasiya yalnız öyrənənlərin şəxsi istəkləri ilə məhdudlaşmır, müəllimlərin pedaqoji strategiyaları, valideynlərin dəstəyi və sosial mühit də bu prosesdə mühüm rol oynayır. Tədqiqatlar göstərir ki, fərqli motivasiya amilləri müxtəlif təhsil pillələrində öyrənənlərin marağını və çalışqanlığını müəyyənləşdirir. Buna görə də pedaqoji yanaşmaların, qiymətləndirmə üsullarının və emosional-sosial dəstəyin koordinasiyası vacibdir.

Motivasiyanı müəyyənləşdirmək və artırmaq üçün üç istiqamət önə çıxır:
1. Daxili və xarici motivasiyanın müqayisəli təsiri və öyrənmə nəticələrinə verdiyi töhfə; 2. Müəllimlərin motivasiyaedici təcrübələrinin öyrənənlərə təsiri; 3. Sosial mühit, texnologiya, mədəniyyətlərarası ünsiyyət və fərdi maraqlar kimi əlavə faktorların rolu.

Beləliklə, motivasiyanın nəzəri və praktik aspektləri birlikdə öyrənənlərin dil bacarıqlarının inkişafında həlledici əhəmiyyət daşıyır.

**Açar sözlər:** daxili motivasiya, xarici motivasiya, xarici dil öyrənənlər, motivasiya strategiyaları.

# COMPARATIVE ANALYSIS OF INTRINSIC AND EXTRINSIC MOTIVATION IN ENGLISH LANGUAGE TEACHING

**Aynur Miriyeva**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The intrinsic and extrinsic forms of motivation play a decisive role in learners' success in English language teaching. Both forms directly influence learners' achievements. Motivation is not limited to learners' personal desires; teachers' pedagogical strategies, parental support, and the social environment also play a crucial role in this process. Research shows that different motivational factors determine

learners' interest and diligence at various educational levels. Therefore, the coordination of pedagogical approaches, assessment methods, and emotional-social support is essential.

Three directions stand out in identifying and enhancing motivation: 1. The comparative impact of intr insic and extrinsic motivation and their contribution to learning outcomes; 2. The influence of teachers' motivational practices on learners; 3. The role of additional factors such as social environment, technology, intercultural communication, and individual interests.

Thus, the theoretical and practical aspects of motivation together hold decisive importance in the development of learners' language skills.

**Key words:** intrinsic motivation, extrinsic motivation, foreign language learners, motivational strategies.

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ВНУТРЕННЕЙ И ВНЕШНЕЙ МОТИВАЦИИ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

**Айнур Мириева**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Внутренние и внешние формы мотивации играют решающую роль в успехах учащихся при изучении английского языка. Обе формы непосредственно влияют на достижения учащихся. Мотивация не ограничивается только личными желаниями учащихся; педагогические стратегии учителей, поддержка родителей и социальная среда также играют ключевую роль в этом процессе. Исследования показывают, что различные мотивационные факторы определяют интерес и усердие учащихся на разных уровнях образования. Поэтому координация педагогических подходов, методов оценки и эмоционально-социальной поддержки является необходимой.

Выделяются три направления в определении и повышении мотивации:

1. Сравнительное влияние внутренней и внешней мотивации и их вклад в результаты обучения; 2. Влияние мотивационных практик учителей на учащихся; 3. Роль дополнительных факторов, таких как социальная среда, технологии, межкультурная коммуникация и индивидуальные интересы.

Таким образом, теоретические и практические аспекты мотивации вместе играют решающую роль в развитии языковых навыков учащихся.

**Ключевые слова:** внутренняя мотивация, внешняя мотивация, учащиеся иностранного языка, мотивационные стратегии.

**Giriş/Introduction**

İngilis dili tədrisinin uğurunu şərtləndirən ən mühüm amillərdən biri kimi motivasiya müasir psixologiya, pedaqogika və tətbiqi dilçilik elmlərində geniş araşdırılır və o, insan davranışının istiqamətini, intensivliyini və davamlılığını müəyyən edən aparıcı psixoloji qüvvə kimi xarakterizə olunur, bu da onun həm öyrənməyə təşəbbüs göstərmək, həm də prosesin davamlılığını və çətinliklərin aradan qaldırılmasını təmin edən həlledici şərt olduğunu sübut edir [Dörnyei, 2005:12]. İngilis dili öyrənmə kontekstində motivasiya xüsusilə əhəmiyyətlidir, çünki ikinci dilin mənimsənilməsi uzunmüddətli və davamlı səy tələb edən mürəkkəb prosesdir və araşdırmalar sübut edir ki, öyrənənlərin motivasiya səviyyəsi onların dil bacarıqlarının inkişaf sürətinə və keyfiyyətinə birbaşa təsir göstərir [Harmer, 2007:46]. Bu anlayış yalnız fərdi psixoloji dəyişən kimi deyil, həm də sosial, mədəni və pedaqoji kontekstlə sıx bağlı olan çoxşaxəli konstruksiya kimi nəzərdən keçirilir; psixoloqlar motivasiyanı insan davranışını hərəkətə gətirən daxili enerji kimi izah edirlərsə, pedaqoqlar üçün motivasiya həm də öyrənmənin davamlılığını təmin edən metodoloji şərtdir.

**İngilis dilinin tədrisi prosesində daxili motivasiyanın əhəmiyyəti.** Ədəbiyyatda motivasiya adətən daxili və xarici olmaqla iki istiqamətdə təsnif olunur: "*Daxili motivasiya öyrənənin öz daxilindən qaynaqlanaraq öyrənmə prosesindən zövq almaq, maraq və şəxsi inkişaf arzusu ilə bağlıdır, xarici motivasiya isə qiymət, mükafat, sosial təsdiq və ya peşə perspektivləri ilə bağlı olaraq öyrənənin xaricindən gələn təsirlərlə formalaşır*" [Dörnyei, 2005:79]. Bu iki kateqoriya əkslik təşkil etsə də, çox hallarda öyrənənlərin motivasiyası onların qarşılıqlı təsiri nəticəsində formalaşır. Daxili motivasiya fərdin daxilində mövcuddur və onun şəxsiyyəti və rifah hissi ilə bağlıdır. Öyrənmə prosesinin özü məqsəd kimi qəbul ediləndə, öyrənənlər daxili motivasiyaya malik olurlar. Belə öyrənənlər üçün əsas mükafat öyrənmənin verdiyi zövq və ya tapşırığı icra edərkən bacarıqlılıq hissidir (özünəinam, self-efficacy). Edvard Deci və Riçard Rayan tərəfindən işlənmiş Özünü Müəyyənetmə Nəzəriyyəsi daxili və xarici motivasiya arasındakı əlaqəni izah edərək insanların ən yüksək öyrənmə nailiyyətlərini daxili motivasiya ilə hərəkət etdikdə əldə etdiklərini göstərir [Ryan, 2000:97], lakin xarici motivasiyanın da müəyyən mərhələlərdə, məsələn, dil imtahanlarında uğur qazanmaq kimi məqsədlərdə mühüm dəstək rolunu oynadığı qeyd olunur. Robert Gardner və Uolles Lambert-in Sosio-təhsil modeli isə motivasiyanın yalnız fərdi amil kimi deyil, həm də sosial münasibətlər və mədəniyyətlərarası açıqfikirliliklə bağlı olduğunu vurğulayır; "*onların fikrincə, hədəf mədəniyyətə müsbət münasibət göstərən öyrənənlər daha yüksək nəticələr əldə edir, mənfi münasibət göstərənlər isə zəif nəticələrlə kifayətlənirlər*" [Gardner, 2010:106]. Gardner bu modeli inkişaf etdirərək müəllimlərin fəaliyyəti, kurikulum, tədris materialları və digər didaktik faktorların da motivasiyaya birbaşa təsir etdiyini göstərmişdir [Gardner, 1985:53], bu isə motivasiyanın kompleks təbiətini bir daha təsdiqləyir. Beləliklə, motivasiya ingilis dili tədrisində yalnız "başlama qüvvəsi" deyil, həm də öyrənmə prosesinin davamlılığını, tələbələrin inadkarlığını və uğurunu

müəyyən edən əsas şərtdir; yüksək motivasiyaya malik öyrənənlər zəif pedaqoji şəraitdə belə əhəmiyyətli nəticələr əldə edə bilirlər, motivasiya olmadıqda isə ən müasir tədris metodları belə uzunmüddətli nəticə doğura bilmir. Bu səbəbdən motivasiyanın daxili və xarici formalarının müqayisəli şəkildə öyrənilməsi ingilis dili tədrisində pedaqoji praktikaların uğurla həyata keçirilməsi üçün metodoloji baza kimi xüsusi əhəmiyyət daşıyır.

**İngilis dilinin tədrisi prosesində xarici motivasiyanın rolu.** İngilis dili öyrənmə kontekstində xarici motivasiyanın müxtəlif formaları müşahidə olunur: akademik nəticələrə yönəlik motivasiya, sosial status və karyera ilə bağlı motivasiya, müəllim və valideynlərin gözləntiləri əsasında formalaşan motivasiya, həmyaşıdların təsiri ilə yaranan motivasiya. Bu hallarda öyrənənlərin fəaliyyəti onların şəxsi maraqlarından deyil, daha çox xarici stimullardan qaynaqlanır. Robert Gardner və Uolles Lambert göstərirlər ki, "*güclü xarici motivasiyaya malik öyrənənlər qısa müddətdə müəyyən nailiyyətlər əldə edə bilirlər, lakin uzunmüddətli öyrənmə prosesində daxili motivasiya ilə müqayisədə daha az effektiv nəticələr ortaya çıxır*" [Gardner, 2010:98]. Bununla belə, xarici motivasiya tamamilə mənfi faktor kimi qiymətləndirilmir; əksinə, bir çox hallarda öyrənməyə başlamaq və ilkin mərhələdə davamlılıq göstərmək üçün vacib stimul rolunu oynayır.

Xarici motivasiyanın üstünlüklərindən biri odur ki, o, öyrənənlərin məqsədyönlü fəaliyyət göstərməsinə imkan yaradır. İş yeri üçün tələb olunan sertifikat, xaricdə təhsil imkanı və ya konkret karyera planına uyğun dil biliklərinin qazanılması öyrənənlərdə intizam, məsuliyyət və səylilik formalaşdırır. Bununla belə, xarici motivasiyanın mənfi tərəfi onun davamlı olmamasıdır: əgər xarici stimullar aradan qalxarsa və ya gözlənilən nəticələr əldə olunmazsa, öyrənməyə maraq kəskin şəkildə azalır. Bundan başqa, yalnız xarici motivasiya ilə yönləndirilən öyrənənlərdə yaradıcılıq və müstəqillik nisbətən aşağı olur, çünki onların fəaliyyətləri əsasən mükafat və cəza mexanizmlərinə əsaslanır.

Zoltan Dörnyei vurğulayır ki, "pedaqoji praktikada xarici motivasiya mühüm rol oynayır, lakin müəllimlərin əsas vəzifəsi onu daxili motivasiyaya çevirməkdir" [Dörnyeyi, 2005:36]. Yəni öyrənənlər əvvəlcə qiymət, mükafat və ya karyera məqsədləri üçün ingilis dili öyrənsələr də, prosesin gedişində öyrənmənin özündən həzz almağa başlamalıdırlar. Bu transformasiya müəllimin pedaqoji strategiyalarından, dərs mühitinin motivasiyaedici xarakterindən və öyrənənlərə verilən sosial-emosional dəstəkdən asılıdır. Xüsusilə müəllimlərin konstruktiv geribildirimi, obyektiv qiymətləndirməsi və öyrənənlərin uğurlarını tanıması xarici motivasiyanın daxili motivasiyaya keçidini asanlaşdırır.

Xarici motivasiya ingilis dili tədrisində həm müsbət, həm də mənfi cəhətlərə malikdir: müsbət tərəfi qısa müddətli məqsədlərə çatmaq üçün güclü stimul verməsi, mənfi tərəfi isə uzunmüddətli öyrənmə prosesində dayanıqlığının zəif olmasıdır. Buna görə də ingilis dili tədrisinin pedaqoji praktikalarında xarici motivasiyanın daxili motivasiyaya transformasiyası əsas strateji məqsəd kimi nəzərdə tutulmalıdır. Bu

transformasiya yalnız müəllimlərin pedaqoji ustalığı, öyrənmə mühitinin düzgün təşkili və öyrənənlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması ilə mümkün olur.

**Tədris prosesində müəllimin motivasiyaedici rolu.** Müasir pedaqoji-psixoloji yanaşmalar göstərir ki, müəllimin rolu yalnız bilik ötürmək və dərs prosesini idarə etməklə məhdudlaşmır, eyni zamanda öyrənənlərin motivasiyasını formalaşdırmaq, onu davamlı saxlamaq və inkişaf etdirmək də müəllimin əsas funksiyalarından biridir. Xüsusilə ingilis dili tədrisi kontekstində müəllim öyrənənlər üçün həm motivator, həm də öyrənmə prosesində istiqamətverici bir fiqur kimi çıxış edir [Harmer, 2007:23]. Penny Ur qeyd edir ki, "*xarici dil dərslərində müəllimin motivasiyaedici rolu tələbələrin öyrənməyə marağını formalaşdırmaqla yanaşı, həm də onların dil öyrənmə prosesində müsbət emosional mühitdə iştirak etməsini təmin edir. Bu isə tələbələrin yalnız dil bilikləri deyil, həm də ünsiyyət bacarıqları, özünəinam və yaradıcı yanaşma qabiliyyətlərini inkişaf etdirir"*[Ur, 2012:21].

Jim Skrivener isə müəllimin rolunu daha geniş şəkildə izah edərək bildirir ki, "*müəllim öyrənənlər üçün həm rəhbər, həm də dəstəkçi funksiyasını yerinə yetirməlidir*" [Scrivener, 2011:38]. Yəni müəllim bir tərəfdən dərsin strukturunu və məqsədlərini müəyyənləşdirir, digər tərəfdən isə tələbələrin fərdi maraqlarına uyğun öyrənmə imkanları yaradır. Bu xüsusilə ingilis dilinin tədrisində vacibdir, çünki tələbələrin dil öyrənmə motivasiyası bir-birindən fərqli ola bilər: bəziləri karyera məqsədləri üçün, digərləri isə şəxsi inkişaf və ya mədəniyyətlərarası ünsiyyət məqsədləri üçün dil öyrənirlər. Zoltan Dörnyei vurğulayır ki, müəllim motivasiya mexanizmlərinin idarə edilməsində açar fiqurdur. Onun fikrincə, "*müəllim yalnız mövcud motivasiyanı dəstəkləmir, həm də yeni motivasiya yaradır və ən əsası, xarici motivasiyanı daxili motivasiyaya transformasiya etmək üçün mühit yaradır. Məsələn, tələbə əvvəlcə yüksək qiymət almaq məqsədilə ingilis dili öyrənə bilər, lakin müəllim maraqlı dərs metodları və interaktiv yanaşmalar vasitəsilə bu öyrənmə prosesini zövq mənbəyinə çevirə bilər*" [Dörnyei, 2005:45].

Müəllimin motivasiyaedici rolunun ən mühüm aspektlərindən biri də dərs mühitinin yaradılmasıdır. Tədqiqatçı Jeremy Harmer qeyd edir ki, dil öyrənməsində emosional mühit biliklərin mənimsənilmə dərəcəsini birbaşa müəyyənləşdirir. Əgər tələbə dərsdə özünü rahat, dəyərli və motivasiyalı hiss edirsə, o zaman onun öyrənmə nəticələri daha yüksək olur. Bu baxımdan, müəllimin dostyana ünsiyyət tərzi, tələbələrə qarşı hörmətli münasibəti və onların fikirlərinə dəyər verməsi mühüm əhəmiyyət daşıyır [Harmer, 2007:57].

Bundan başqa, müəllimlərin istifadə etdiyi metod və yanaşmalar da motivasiya üzərində təsirli olur. Kommunikativ tədris metodları (Communicative Language Teaching – CLT) tələbələrin dərsdə aktiv iştirakını təmin edir və onların daxili motivasiyasını gücləndirir [Richards, 2014:85]. Rol oyunları, qrup müzakirələri, debatlar və layihə əsaslı öyrənmə kimi üsullar öyrənənlərin həm sosial, həm də dil bacarıqlarını inkişaf etdirməklə yanaşı, onlara öyrənmə prosesindən həzz almağa imkan verir.

Müəllimlərin motivasiya strategiyalarından biri də fərdiləşdirmədir. Oxford göstərir ki, "*fərdi öyrənmə tərzlərinin nəzərə alınması tələbələrin motivasiya səviyyəsini yüksəldir*" [Oxford, 1990:145]. Bu xüsusilə ingilis dili tədrisində aktualdır, çünki tələbələrin öyrənmə məqsədləri, maraqları və bacarıq səviyyələri bir-birindən fərqlidir. Müəllim tələbələrin maraqlarına uyğun materiallar seçdikdə – məsələn, musiqi, film, idman və ya texnologiya ilə bağlı mətnlər – onların dərsə marağı artır və motivasiya güclənir. Əlavə olaraq, müəllimlərin geribildirim təqdimetmə üsulları da motivasiya üzərində ciddi təsir göstərir. Deci və Ryan qeyd edirlər ki, "*konstruktiv geribildirim tələbələrin daxili motivasiyasını gücləndirir, çünki onlar öz fəaliyyətlərinin dəyərini dərk edirlər. Əksinə, sərt və cəzaedici yanaşmalar tələbələrdə motivasiya itkisinə səbəb ola bilər. Bu səbəbdən müəllimlər ingilis dili dərslərində geribildirimi balanslı, obyektiv və inkişafyönlü təqdim etməlidirlər*" [Deci, 1985:64].

Müasir dövrdə ingilis dili tədrisində texnologiyadan istifadə də müəllimlərin motivasiya strategiyalarının vacib bir hissəsinə çevrilmişdir. Tədqiqatçı Bax göstərir ki, İKT vasitələrinin (videolar, interaktiv platformalar, onlayn testlər və oyunlar) tətbiqi tələbələrin öyrənmə prosesinə daha fəal və maraqla qoşulmasına səbəb olur. Beləliklə, müəllim texnologiyanı dərs prosesinə inteqrasiya etməklə motivasiyanı həm daxili, həm də xarici cəhətdən dəstəkləyə bilir [CALL, 1985:21].

Müəllimin rolu həm də tələbələrin uzunmüddətli motivasiyasını qorumaqla ölçülür. Dornyei qeyd edir ki, "*dil öyrənmə prosesi uzunmüddətli və çətin bir prosesdir, buna görə də müəllim yalnız ilkin mərhələdə deyil, həm də bütün tədris müddətində tələbələrin motivasiyasını yüksək səviyyədə saxlamağı bacarmalıdır"* [Dörnyeyi, 2005:112]. Bu isə ardıcıl dəstək, müxtəlif metodların tətbiqi və öyrənənlərin uğurlarının qeyd olunması ilə mümkündür.

**Nəticə/Conclusion**

Nəticə etibarilə, müəllimin motivasiyaedici rolu ingilis dili tədrisində həlledici faktor kimi çıxış edir. Müəllimlər öyrənənlərin daxili və xarici motivasiyalarını düzgün balanslaşdıraraq onların öyrənmə prosesini davamlı, maraqlı və məqsədyönlü edə bilərlər. Bu isə yalnız dil biliklərinin deyil, həm də ömürboyu öyrənmə vərdişlərinin formalaşmasına xidmət edir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Bax, S.CALL − past, present and future. (2000). − System, 31(1), 13–28. – p.46.
2. Deci, E.L., Ryan R.M. (1985). Intrinsic motivation and self-determination in human behavior. − New York: Springer. − p.371.
3. Dörnyei, (2001). Z. Motivational strategies in the language classroom. − Cambridge: CUP. − p.171.
4. Dörnyei, Z. (2005). The psychology of the language learner. − Mahwah, NJ: Lawrence Erlbaum. – p.270.

5. Harmer, J. (2007). The practice of English language teaching. 4th ed. − Harlow: Pearson. – p.448.

6. Oxford, R. (1990). Language learning strategies: What every teacher should know. − Boston: Heinle & Heinle. – p.342.

7. Richards, J.C., Rodgers, T.S. (2014). Approaches and methods in language teaching. 3rd ed. − Cambridge: CUP. − 278.

8. Ryan, R.M., Deci, E.L. (2000). Self-determination theory and the facilitation of intrinsic motivation, social development, and well-being. − The American Psychologist. − 55(1). − p.68–78.

9. Gardner, R.C. (2010). Motivation and Second Language Acquisition: The Socio-Educational Model. − New York: Peter Lang. – p.208.

10. Gardner, R.C. Social psychology and language learning: The role of attitudes and motivation. London: Edward Arnold, 1985, p-208 .

11. Scrivener, J. Learning teaching: The essential guide to English language teaching. 3rd ed. Oxford: Macmillan, 2011, p- 416 .

12. Ur, P. (2012). A course in language teaching: Practice and theory. Cambridge: CUP. − p.388.

**Məqalə tarixçəsi**

*Daxil olub* 28.09.2025

*Qəbul olunub* 14.10.2025

*Nəşrə tövsiyə edib* *Rəcəb Cəfərli*

*filologiya üzrə fəlsəfə doktoru, dosent*